# MÜASİR ORDU QURUCULUĞUNDA YENİ MƏRHƏLƏ





## Silahlı Qüvvələrimiz Vətənimizi yüksək peşəkarlıqla qorumağa qadirdir

**"Müharibədən sonra yeni qoşun növü - komando növü yaradılmışdır və Hadrutda birinci komando hərbi bazasının açılışında mən şəxsən iştirak etmişəm. Bu, çox güclü bir qoşun növüdür. Əminəm ki, hazırda artıq bu qoşun növü istənilən vəzifəni icra edə bilər. Biz isə sadəcə olaraq, komandoların sayını ildən-ilə artıracağıq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib. 44 günlük müharibənin hər gününün dərindən təhlil edildiyini bildirən dövlət başçısı qeyd edib ki, bu, bizə gələcək ordu quruculuğunu real vəziyyətə əsaslanaraq formalaşdırmağa imkan verdi. Bunu nəzərə alaraq yeni silahların, texnikaların alınması da təmin edilir. Bununla bərabər, müharibədən sonra Müdafiə Nazirliyində struktur dəyişikliyi edilmişdir və bu da ordumuzu daha da gücləndirəcək, müasirləşdirəcək.**

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev hələ ötən il dekabrın 24-də Hadrutda yeni hərbi hissənin açılışında çıxış edərkən demişdi: "...bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq". Müzəffər sərkərdə, qalib Ali Baş Komandan əminlik ifadə edərək bildirib ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi, yenilməzlik ruhunu qoruyacaqdır.

**(davamı 3-cü səhifədə)**

# MÜASİR ORDU QURUCULUĞUNDA YENİ MƏRHƏLƏ

**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısı vurğulayıb ki, bununla paralel olaraq, İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin sayı artırıldı və artırılacaq. Qeyd edək ki, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri müstəsna rol oynayıb. Bundan başqa, Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə ABŞ, Türkiyə və Pakistanda təşkil olunan yarışlarda yüksək nailiyyətlər qazanıblar. 2016-cı ilin aprelində baş vermiş döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrin bölmələri iştirak ediblər. Döyüşlər zamanı düşmənin çox sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də Xüsusi Təyinatlı Qüvvələr böyük şücaət göstəriblər.

## *Silahlı Qüvvələrimiz Vətənimizi yüksək peşəkarlıqla qorumağa qadirdir*



Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşüb. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması, modernləşməsi istiqamətində görülən işlər davam edir. Dövlət başçısı qeyd edib ki, heç nəyi unutmamışıq və unutmayacağıq. Ona görə müharibədən dərhal sonra bütün başqa bərpa işləri ilə bərabər, həmişə olduğu kimi, hərbi sahəyə də ciddi fikir verilir. Müharibədən sonra Türkiyə və İsrail şirkətləri ilə yeni, böyük kontraktların imzalandığını bildirən ölkə başçısı bəzi müqavilələrin icrasının başlandığını, bəzilərinin başa çatdığını, bəzilərinin isə davam etdiyini vurğulayıb. Qüdrətli Azərbaycan Ordusu torpaqlarımızın və xalqımızın müdafiəsində əzmlə dayanıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusuna çevrilib. Prezident İlham Əliyev "TRT Haber" telekanalına müsahibəsində deyib: "Biz çox xoşbəxt ölkəyik ki, Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah, bərabər quracağıq". Odur ki, çağdaş türk ordu modeli bizim üçün ən məqbul modeldir. Məhz bu model Azərbaycan Silahlı Qüvvələrini mobil və daha çevik döyüş qabiliyyətli bir orduya çevirəcəkdir.

İki qardaş ölkənin silahlı qüvvələri müasir tələblərə uyğun olaraq ordunun yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edirlər. Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, silahlı qüvvələrin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edirlər.

Silahlı qüvvələrimizdə Türkiyə Silahlı Qüvvələrinin ordu strukturuna uyğun islahatlar aparılır. Türkiyənin bu istiqamətdə Azərbaycana böyük dəstəyi var. Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi deyil, eyni zamanda, bölgədə sülh və təhlükəsizliyin təmini baxımından mühüm əhəmiyyət kəsb edir. 2010-cu il sentyabrın 15-də imzalanmış "Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması" haqqında Birgə Bəyannamə əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoydu. Şuşa Bəyannaməsi ilə bu əlaqələr müttəfiqlik səviyyəsinə qaldırıldı. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Şuşa Bəyannaməsi Türkiyə ilə müdafiə sənayesi sahəsində əməkdaşlığın möhkəmlənməsini və qarşılıqlı hərbi yardımı nəzərdə tutur. Azərbaycan və Türkiyə hökumətləri arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında saziş hərbi təchizat sahəsində əməkdaşlığı təsbit edir. Bu təkcə müasir texnologiyaların Azərbaycan ordusuna inteqrasiyası ilə yekunlaşmır, həm də hərbçilərimizin Türkiyə ordusu səviyyəsinə çatdırılması istiqamətində böyük işlərin şahidiyik.

Hərbi ekspertlər bildirir ki, iyirmi il əvvələ təsadüf edən Azərbaycan və İsrail arasında hərbi-texniki əməkdaşlıq silah və hərbi texnikanın alınması ilə başlayıb. 2005-ci ildən ölkələrimiz arasında bu sahədə fəal əməkdaşlıq uğurla davam etməkdədir. İlk illərdə Azərbaycan İsraildən reaktiv yaylım atəş sistemləri və pilotsuz uçuş aparatları alıb ki, 2008-ci ildə Bakıda keçirilən hərbi paradda bu silahlar nümayiş olunmuşdu. Ötən il İsrailin "Meteor Aerospace" hərbi sənaye şirkəti Azərbaycanda Caspian Ship Building Company (Bakı Gəmiqayırma Şirkəti) ilə birgə müəssisə yaradıb. Məqsəd Azərbaycanın milli ehtiyaclarını təmin etmək üçün müdafiə sahəsində qabaqcıl həllər təklif etməkdir. Hər iki şirkət Azərbaycanın müdafiə sahəsinin və sənayesinin ehtiyacları üçün geniş spektrdə həllər təklif etmək üçün yaxşı imkanlara və unikal üstünlüklərə malikdir. "Meteor Aerospace" bildirir ki, bu əməkdaşlığın həyata keçirilməsi üçün Azərbaycanda "Caspian Meteor" adlı yeni birgə müəssisə yaradılıb. "Bakı Gəmiqayırma Zavodu" MMC artıq İsrail şirkətləri ilə birlikdə hərbi gəmilərin inşaatını həyata keçirir. "Meteor Aerospace" şirkəti isə hərbi sahədə geniş spektrdə müdafiə sistemləri işləyib hazırlayır. Bura maksimal yükgötürmə qabiliyyəti 1400, faydalı yükgötürmə qabiliyyəti 700 kiloqram olan böyük pilotsuz uçan aparatlar, pilotlu və pilotsuz gəmilər, pilotsuz yerüstü avtomobillər, yüksək dəqiqlikli, böyük radiusa malik, uzaq məsafələrdən ağır zərbələr endirmək imkanları olan raketlər daxildir. Qeyd edək ki, F-35 beşinci nəsil döyüş təyyarələri şirkətin istehsal etdiyi "Meteor" raketləri ilə təchiz olunub.

İsrail-Azərbaycan münasibətlərinin strateji və hərbi-texniki tərəfdaşlıq xarakteri daşıdığını, iki ölkənin hökumətlərarası komissiyasının yüksək səviyyədə etimad və daimi qarşılıqlı dialoqa malik olduğunu vurğulamaq çox vacibdir. 2016-cı ilin dekabrında İsrailin o vaxtkı Baş naziri Benyamin Netanyahunun Azərbaycana tarixi səfəri və İsrailin İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana göstərdiyi yardım Azərbaycanla İsrail arasında sıx və möhkəm hərbi-texniki və strateji tərəfdaşlığın olduğunu bir daha təsdiqləyib. Bu tərəfdaşlıq, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də vurğulanmışdı. Azərbaycanın 2020-ci ilin dekabrında Zəfər paradında İsrail silahlarının bir hissəsini, məsələn, 12.7 mm NSV pulemyotlu SandCat-Stormer zirehli maşınları, SPIKE-ER, NLOS, LAHAT tank əleyhinə idarə olunan raketləri, 120 mm SPEAR minaatanları, çoxsaylı PUA-ları nümayiş etdirməsi faktı strateji tərəfdaşlığımıza paxıllıq edənlərə real və səmimi cavab idi.

"Azərbaycanda təkcə türk silahları yox, rus, İsrail, Belarus, Ukrayna silahları var. Çünki bu gün bizdə hərbi texnikanın satınalma coğrafiyası daha da genişlənir və biz bunlara görə pul ödəyirik. Ermənistanın silahları necə və haradan əldə etməsinə nəzər salsanız görərsiniz ki, onlarda olan silahlara görə onlar ödəniş etmək imkanında deyillər. Çünki bu, milyardlarla dollardır və kasıb ölkə üçün bu, mümkünsüzdür. Onlar öz müttəfiqlərindən silahları pulsuz əldə edirlər, biz silahlara ödəniş edərək onları alırıq". Prezident İlham Əliyev bu barədə "CNN International" televiziya kanalına müsahibəsində danışıb. Dövlət başçısı qətiyyətlə bildirir ki, bundan sonra da ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaq. Hərbi gücümüz, eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayır və oynayacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 19 aprel.- S.1;3.